Mötəbər tarixi qaynaq

# "Qarabağ xanlığı"nın xəritəsində erməni izləri




**Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun bir qrup əməkdaşı – tarix üzrə fəlsəfə doktorları, dosentlər Elmar Məhərrəmov, Hacı Həsənov, Zeynəb Qafarova, elmi işçiləri Lətifə Əskərova – Surxəlizadə və Ruqiyə Talıbova hay-ermənilər tərəfindən işğal olunmuş Qarabağın azadlığı uğrunda 44 günlük Vətən müharibəsi başladıqdan sonra bu diyarın bütün ərazisinin xəritəsini keçmiş Qarabağ xanlığının hüdudları çərçivəsində Dövlət Tarix Arxivində köhnə xəritələr və arxiv sənədləri əsasında yer adlarını dəqiqləşdirməklə sənədlərin axtarışına başladılar. Müəlliflər iki il çalışmaqla bu xəritəni ərsəyə gətirdilər.**

Xəritədə fərqli rənglə Qarabağda yerləşdirilən erməni ailələrinin sayı verilmişdir. Onları buraya köçürənlər hay kəndlərinin sayının çox olmasını qabartmaq üçün saldıqları bəzi yerlərdə 3, 4, 5, 6, 7 və s. sayda ailədən ibarət kiçik süni kəndlər yaratmışdılar. Aşağıda arxiv sənədləri əsasında erməni ailələrinin sayı, onların yerləşdirildiyi kəndlər və mülklər haqqında qısa məlumat verilir. Üstəlik, hayların məskunlaşdıqları kəndlərin böyük əksəriyyətinin adları Azərbaycan dilindədir və bunun ermənilərə heç bir aidiyyəti yoxdur.

Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğal olunmasından sonra 1823-cü ilədək İrandan köçürülən hay-ermənilərin ailə saylarını köhnə və yeni salınan kəndlər üzrə göstəriciləri (digər hay-erməni kəndləri Türkmənçay müqaviləsindən sonra salınıb).

Göstəricilər Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin sənədləri əsasında (fond 24, siyahı 1, iş 143.) hazırlanmışdır.

Qarabağ əyalətində Qarabağ xanlarına, bəylərinə, zadəganlarına məxsus olan torpaqlara köçürülmüş ermənilərin yerləşdirildiyi kəndlər üzrə 1823-cü ilə dair statistik qeydlər:

Mehdiqulu xan tərəfindən həyat yoldaşı Xanxanım ağaya hədiyyə edilmiş torpaqlarda yaranmış erməni kəndi: Qaladərəsi – 84 evdən ibarət olmuşdur.

Xanın kürəkəni Əli bəyin oğlu Beybud bəyə və Ağalar bəyə məxsus olan torpaqlarda salınmış kəndlər: Qağarzalı – 29 evdən, Barabattın – 18 evdən ibarət olmuşdur.

Xanın əmisi oğlu Niftəli bəyin övladları Lütfəli bəyə, Əmiraslan bəyə və Abdulla bəyə məxsus ərazidə olan torpaqlarda yaradılan kəndlər: Qışlaq-kənd – 23 evdən ibarət olmuşdur.

Xanın qardaşı Süleyman bəyə məxsus olan torpaqda salınan kəndlər: Xarallı – 16 evdən, Məzməzək – 13 evdən ibarət olmuşdur.

Hüseyn bəy, Səlif bəy və Cəfər bəy və qohumlarına məxsus olan torpaq sahəsində salınan kəndlər: Süst – 19 evdən ibarət olmuşdur.

Şəfi bəy və Hüseynxan bəyə məxsus olan torpaq sahəsində salınan erməni kəndi: Zavadıx – 23 evdən ibarət olmuşdur.

Məmmədhəsən ağanın oğlu Böyükxana məxsus olan torpaqda salınan erməni kəndi: Ataqut – 21 evdən ibarət olmuşdur.

Böyük xanın anası Maşəraf xanıma məxsus olan torpaqda salınan kənd: Qaralı – 11 ev.

Cəfərqulu ağanın qardaşı Şükür ağaya məxsus olan torpaqda salınan kənd: Qeşi – 43 evdən ibarət olmuşdur.

Xanın bacısı Əzət bəyimə məxsus olan torpaqda salınan: kəndlər: Mixatar – 43 ev, Qazançı – 17 ev, Arbaduz – 22 ev, Qaybalı – 27 ev, Xanazek – 32 ev. Nurəşin – 5 ev, Sarab – 36 ev.

Əsəd bəy və Vəli bəyə məxsus olan torpaqda salınan kənd: Qaraunc – 17 ev.

Cəfərqulu ağanın qardaşı Xancan ağaya məxsus olan torpaqda salınan kənd: Ballıca – 37 ev.

Xanın bacısı Gövhər ağaya məxsus olan torpaqda salınan kəndlər: Fərrux – 8 ev, Xanabat – 27 ev, Yaycı – 14 evdən ibarət olmuşdur.

Talıbxan bəyin oğlanları Əliməmməd bəyə, Əlipaşa bəyə, Ağası bəyə, Kəlbəli bəyə, Nəsir bəyə məxsus olan torpaqda salınan kəndlər: Dəhrəzli – 8 ev, Ağbulaqlı – 21 ev.

İbrahim xanın oğlu Məmmədqasım ağaya məxsus olan torpaqda salınan kənd: Azıxkəndi – 48 evdən ibarət olmuşdur.

Poruçik Gülməmməd bəyə məxsus olan torpaqda salınan kəndlər: Təkirmirikənd – 31 ev, Şomlu kəndi – 6 ev.

**Sisian mahalı (Zəngəzur mahalı)**

Hacı Ağalar bəyə məxsus olan torpaqda salınan kəndlər: Pirnaut – 66 ev, Axlatian – 27 evdən ibarət olmuşdur.

Kapitan Uğurlu bəyə məxsus olan torpaqda salınan kəndlər: Gerov – 15 ev, Qeni kənd– 14 evdən ibarət olmuşdur.

Əhməd Əli, Divan bəyə məxsus olan torpaqlarda salınan kəndlər Kərkicahan – 11 ev, Aravus (Ərəfsə)– 16 ev, Təng – 9 evdən ibarət olmuşdur.

Divan bəyin mirzəsi Mirzə Yusifə məxsus olan torpaqlarda salınan kənd: Qarakötüklü – 27 evdən ibarət olmuşdur.

**Güpara mahalı**

Hacı Ağalar bəyə məxsus olan torpaqlarda salınan kənd: Göyərək – 18 ev, Sirkətas – 8 ev, İrsavanik – 11 evdən ibarət olmuşdur.

İsmayıl bəyin əmisi oğlu Vəli bəyə məxsus olan torpaqlarda salınan kəndlər: Çapni – 5 ev, Mülkiçap – 3 evdən ibarət olmuşdur.

Vəli bəyin qardaşı Nuru bəyə məxsus olan torpaqlarda salınan kənd: Sevəkər – 11 evdən ibarət olmuşdur.

Kapitan İsmayıl bəyə və onun qardaşları Vəli bəy və Nuru bəyə məxsus olan torpaqlarda salınan kənd: Qılıcbağlı – 19 evdən ibarət olmuşdur.

Poruçik Səfəralı bəy və qardaşlarına məxsus olan torpaqlarda salınan erməni kəndləri: Daşkənd – 8 ev, Ağkənd – 18 ev, Aranzəmin – 7 ev, Yengikənd 17 ev, Çıraquz – 15 ev.

**Bərgüşad mahalı**

Cəfərqulu bəyə məxsus olan torpaqlarda salınan erməni kəndi: Ucanis – 28 evdən ibarət olmuşdur.

**Bağabürd mahalı**

Polkovnik Xanlar ağanın qardaşı Əhmədxana, anası Bikə ağa, xanımı və qızına məxsus kənd: – Təngə-bulaq – 30 evdən ibarət olmuşdur.

Polkovnik Xanlar ağaya məxsus olan torpaqlarda salınan erməni kəndi: Daşbulaq – 30 ev, Bazarkənd – 3 ev, Damğalı – 5 evdən ibarət olmuşdur.

Polkovnik Xanlar ağanın qardaşı Əhməd xana məxsus olan torpaqlarda salınan erməni kəndi: Dovşanlı – 29 ev. Daşbaşı – 15 ev.

Kapitan Rüstəm bəyə məxsus olan torpaqlarda salınan erməni kəndi: Keşişkənd – 10 evdən ibarət olmuşdur.

Mehdiqulu xan tərəfindən Qasım bəyin oğlanları: Kapitan Rüstəm bəy, Hacı Ağalar bəy, Hacı Bəylər bəyə idarə etmək üçün verdiyi torpaqlarda salınan erməni kəndi: Görünzur – 105 ev, Qediş – 19 ev.

**Kəbirli mahalı**

Siznik – 19 ev, Xələfşəli – 5, Xaçmaç – 13 evdən ibarət.

**Tativ mahalı**

Hacı Ağalar bəyə məxsus torpaqlarda salınan erməni kəndi: Tativ – 89 ev, Şinatağ –13 ev, Şinger – 70 ev, Xot – 46 ev, Qalazur kəndi – 13 evdən ibarət olmuşdur.

Mehdiqulu xana məxsus olan torpaqlarda salınan erməni kəndi: Lor – 10 ev, Tanzatap – 9 evdən ibarət olmuşdur.

Fərzəli bəy və onun bacısı Balaxanıma məxsus olan torpaqlarda salınan erməni kəndi: Qorı – 21 evdən ibarət olmuşdur.

Hacı Ağalar bəyə məxsus olan torpaqlarda salınan erməni kəndi: Gorus – 118 ev, Xanzirək – 217 evdən ibarət olmuşdur.

Xan tərəfindən Qala bəyə idarə edilmək üçün verilən torpaqlarda salınan erməni kəndi: Əliqulukənd – 42 ev, Qaraunşlu – 25 evdən ibarət olmuşdur.

Əsəd bəyə məxsus olan torpaqlarda salınan erməni kəndi: Qızılqışlaq – 11 ev, Vəngli – 7 evdən ibarət olmuşdur.

Rüstəm bəyə məxsus olan torpaqlarda salınan erməni kəndi: Dağkəndi – 127 evdən ibarət olmuşdur.

**Talış mahalı**

Erkəc – 40 ev, Qarabulaq – 34 ev, Buzlux – 34, Aşağı Ağcakənd – 40, Yuxarı Ağcakənd – 42 evdən ibarət olmuşdur.

**Xaçın mahalı**

Sarakeşiş – 18 ev, Badara – 24 ev, Qayabaşı – 17 ev, Xoramurd – 15 ev, Koladıq – 6 ev, Neglül – 16, Şəlvə – 10, Urixaç – 4, Vəngli – 36, Yengicə – 8, Mehdikənd – 24 evdən ibarət olmuşdur.

**Kolanılar mahalı**

Aqmaxi kəndi – 9 ev.

**Püsyan mahalı**

Qevarti – 2 ev, Qevart – 4 ev.

**Çiləbörd mahalı**

Mehdiqulu xana məxsus olan torpaqlarda salınan erməni kəndi: Qasabet – 88 ev, Gülyataq – 14 ev, Kiçik Qarabəy – 13 ev, Ulu Qarabəy – 11 ev, Maqauz – 14 ev, Asanriz – 20 ev, Yengicə – 5 ev.

Əsri bəyə məxsus olan torpaqlarda salınan erməni kəndi: Naxçıvanik – 36 evdən ibarət olmuşdur.

**Dizaq Cavanşir mahalı**

Minbaşı Qasım bəy tərəfindən idarə edilən Dizaq Cavanşir mahalı Divan xanın birinci mirzəsi Camal bəyə və onun qardaşına məxsus torpaqlarda salınan erməni kəndi: Edilli – 11 ev, Düdükçü – 3 ev, Maqauz – 14 ev, Asanriz – 20 ev, Xaxlı – 12 evdən ibarət olmuşdur.

**Otuziki mahalı**

Dövlətin idarəsində olan erməni kəndi: Cələbilər – 17 evdən ibarət olmuşdur.

Qala bəy Məmməd bəyə məxsus olan torpaqlarda salınan erməni kəndi: Daşbaşılı – 5 ev, Daşbaşı – 5 evdən ibarət olmuşdur.

**İyirmi dörd mahalı**

Şarolidən qaçıb gəlmiş və 7 mahalda məskunlaşmış ermənilər: Həsənqaya – 21 evdən ibarət olmuşdur.

Baxşəli bəyə məxsus olan torpaqlarda salınan erməni kəndi: Sərab – 6 evdən ibarət olmuşdur.

Qarabağ əyalətində Vərəndə və Dizax mahalının bütün torpaqları İbrahimxəlil xana, daha sonra isə Mehdiqulu xana məxsus olmuşdur. Ruslar siyahıya alınmada Vərəndə və Dizax mahalında yerləşən bütün kəndləri məqsədyönlü şəkildə ermənilərin sayını çox göstərmək məqsədilə erməni kəndləri kimi yazmışlar.

Polkovnik Cəmşidin oğlu Bəhram bəyə məxsus olan torpaqlarda salınan erməni kəndi: Dommi – 27 ev, Susalıx – 9 ev, Şuşakənd – 97 ev, Qatıx – 34 ev, Qaşyan – 29 evdən, Gəmişcə – 15 ev, İsfahancıq – 29 ev, Mişkabad – 17 ev, Siznik – 24 ev, Dağdağan – 20 ev, Qasi – 13 evdən ibarət olmuşdur.

Qəhrəman Şahnəzərova məxsus olan torpaqlarda salınan erməni kəndi: Ciqaduz – 12 evdən ibarət olmuşdur.

Mehdiqulu xan tərəfindən bacısı Şahnisəbəyimə məxsus olan torpaqlarda salınan erməni kəndi: Qağarza – 8 evdən ibarət olmuşdur.

Mehdiqulu xan tərəfindən Əsri Baba Şaxnazarova məxsus olan torpaqlarda salınan erməni kəndi: Şıxdursun – 8 evdən ibarət olmuşdur.

Məlik Bəhramın qızına məxsus olan torpaqlarda salınan erməni kəndləri: Gərgər və Xirxan – 43 evdən ibarət olmuşdur.

Adıgözəl bəyə məxsus olan torpaqlarda salınan erməni kəndi: Ağbulaq – 8 evdən ibarət olmuşdur.

Xudadad Şahnəzərova məxsus olan torpaqlarda salınan erməni kəndi: Qarakənd – 37 ev, Kəndxurt – 45 evdən ibarət olmuşdur.

İbrahimxəlil xandan Mehdiqulu xana, ondan da Bəhram bəyə məxsus olan torpaqlarda salınan erməni kəndi: Tağaverd – 36 evdən ibarət olmuşdur.

Zardanaşen – 41 ev, Mədətkənd – 19 ev, Mavas (Movses) – 11 evdən ibarət olmuşdur.

Mirzə Camalın qardaşı Sadıx bəyə məxsus olan torpaqlarda salınan erməni kəndi: Zamzur – 21 ev, Sur – 25 ev, Hədrud – 70 ev, Tağasir – 22 ev, Keşkeş – 2 ev, Tuğ – 75 ev, Ağcakənd – 9 ev, Qaqağı – 5 ev, Xozabirt – 18 ev, Mamadazor – 7 ev, Qəmrəgüc – 3 ev, Daraxdıx – 9 ev, Küğül – 3 ev, Bulutan – 1 ev, Tsokorı – 9 evdən ibarət olmuşdur.

Cəfərqulu ağanın torpaqlarında salınan erməni kəndi: Arazzəmin – 37 ev, Əylisli – 38 ev, Banazur – 56 ev, Mülkidərə-Zərdəxaç kəndi – 12 evdən ibarət olmuşdur.

Bəhmənlər – 15 evdən ibarət olmuşdur.

Fərzəli bəyə məxsus olan torpaqlarda salınan erməni kəndi: Seyid Sultan – 15 evdən ibarət olmuşdur.

Qarabağ xanı Mehdiqulu xana məxsus olan torpaqlarda salınan erməni kəndi: Xankəndi – 40 evdən ibarət olmuşdur.

**Acanan-Türk mahalı**

Nuraşenik – 13 ev, Arcazur – 12 ev, Axtaxana – 4 ev, Xotanan – 5 evdən ibarət olmuşdur.

*Təqdim etdi:*
***Qüdrət PİRİYEV,***
***"Xalq qəzeti"***